# Ənənəni yaşadan kollektiv

**Mən jurnalistikaya qəlbimin diktəsi ilə gəlmişəm. Fəxr edirəm ki, Bakı Dövlət Universitetinin İkinci Dünya müharibəsindən sonra açılmış jurnalistika şöbəsinin üçüncü buraxılışının məzunu olmuşam. Bu peşənin adını, şərəfini hər zaman, hər yerdə uca tutmağa çalışmışam.**



1953-cü ildə ölkənin avanqard dövri nəşri sayılan "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində ilk ali təhsilli jurnalist qadın kimi fəaliyyətə başlamışam. Düz 35 il fasiləsiz olaraq burada çalışmış, müxtəlif şöbələrdə müxbir, müdir vəzifələrini tutmuşam, ayrı-ayrı illərdə redaksiyanın partiya və həmkarlar təşkilatlarına rəhbərlik etmişəm.

Mən "Xalq qəzeti"nə həyatımın ən əziz və gözəl günlərini həsr etmişəm və bundan zərrə qədər peşman deyiləm. Bu qəzetdə mənimlə bərabər, məndən əvvəl və sonra çalışan hər kəs mənə son dərəcə doğma və əzizdir. Kollektivin hər bir üzvünü özümə doğma qardaş və bacı bilmişəm. Hətta nəvəm Gülər deyir ki, "Xalq qəzeti" sənin özündən 10 yaş böyük qardaşındır". Hər dəfə bu sözləri eşidəndə çox təsirlənir və qürurlanıram.

Mən xeyli vaxtdır ki, təqaüddəyəm. Amma doğma kollevtivim, həmkar dostlarım bir an məni unutmur. Bir faktı burada xüsusi qeyd etmək istəyirəm. Doqquz il əvvəl 85 yaşım ilə bağlı Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin təşəbbüsü ilə bir qrup tanınmış jurnalist məni evimdə ziyarət etdilər. Mətbuat Şurasının sədri Əflatun Amaşov (hazırda "Xalq qəzeti"nin baş redaktorudur) söhbət zamanı məni Azərbaycanda qadınları jurnalist peşəsinə bağlayan canlı örnəklərdən biri kimi dəyərləndirdi. Mənə rəhbərlik etdiyi qurumun yubiley plaketini təqdim etdi. Eyni zamanda, Ahıl Jurnalistlər Məclisinin xatirə hədiyyəsi ilə də mükafatlandırıldım.

Yaxşı xatırlayıram ki, mənimlə görüşə vaxtilə birlikdə işləmiş jurnalistlərdən Rafiq Həsənov, Flora Sadıqova və Məzahir Süleymanzadə də təşrif buyurmuşdular. Onlar məni məsuliyyətli işçi və bacarıqlı jurnalist, yaxşı təşkilatçı və qayğıkeş yoldaş kimi kollektivdə böyük nüfuz qazandığımı söylədilər. "Xalq qəzeti"nin təmsilçiləri Tahir Aydınoğlu, İlqar Musaoğlu, Rafiq Salmanov qəzetin keçmiş işçilərinin xidmətlərini qeyd etdilər, onlara ehtiramlarını bildirdilər.

Jurnalist həmkarlarımı dəmlədiyim plova qonaq etdim. Süfrə arxasında davam edən söhbətdə jurnalistikada keçən günlərdən xoş duyğularla söhbət açdıq, həmkarlarıma peşəkar mətbuatımızın sınaqdan çıxmış ənənələrini xatırladıb, yeni nəsil qələm sahiblərinin söz azadlığından bacarıqla yararlanmasının vacibliyini önə çəkdim.

Bu gün çap mətbuatında işləmək asan deyil. İnternet, sosial şəbəkələr, televiziyalar oxucunun diqqətini özünə cəlb etməyə çalışır, bir çox hallarda buna nail olurlar.

Son aylar qəzetdə aktual, rəngarəng materialların, tənqidi yazıların sayı artıb. Bu, məni çox sevindirir.

Bu gün "Xalq qəzeti"nin 104 yaşı tamam olur. Mənim isə 94 yaşım var. Deməli, mənim üçün son dərəcə doğma olan qəzetim məndən 10 yaş böyükdür. Arzu edirəm ki, mənə gələn il 95 yaşımda doğma qəzetimin 105 illik yubileyini görmək və yubiley tədbirlərində iştirak etmək xoşbəxtliyi nəsib olsun.

***Tamara ƏLİYEVA,***
***"Xalq qəzeti"nin sabiq şöbə müdiri***

Xalq qəzeti.- 2023.- 29 avqust.- S.13.